Gözəl sənət nümunələri yaradan rəssam

Azərbaycan rəssamlıq məktəbinin formalaşmasında və gənc rəssamların yetişməsində Əməkdar incəsənət xadimi Hafiz Məmmədovun xüsusi xidmətləri olub. O, uğurlu bədii yaradıcılıq fəaliyyəti ilə yanaşı, uzun müddət Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda pedaqoji fəaliyyət göstərib, bir sıra tanınmış rəssamlarımıza təsviri sənətin sirlərini öyrədib.



Hafiz Məmmədov 1921-ci ildə Bakı şəhərində anadan olub. Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunu bitirdikdən sonra könüllü müharibəyə yollanıb, Stalinqraddan Berlinədək döyüş yolu keçib. Müharibədən qayıtdıqdan sonra V.İ.Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna qəbul olunub, oranı uğurla bitirib.

Rəssamın palitrasında vətənpərvərlik və müharibə mövzuları həmişə əsas mövzular kimi götürülüb. O həmçinin Ə.Əzimzadə adına Azərbacan Dövlət Rəssamlıq Texnikumunun direktoru vəzifəsində çalışıb. Bakıda H.Məmmədovun əsərlərindən ibarət fərdi sərgilər təşkil olunub. Rəssamın yaratmış olduğu bədii sənət nümunələri ölkəmizlə yanaşı, xaricdə də muzey, qalereya və şəxsi kolleksiyalarda saxlanılır. H.Məmmədovun yaradıcılığının səciyyəvi xüsusiyyətləri kimi mükəmməl kompozisiya quruluşu, obraz yaradıcılığı və kolorit həllində peşəkar bədii işlənilmə xüsusiyyətlərini qeyd etmək olar.

Rəssamın süjetli tablolarından "Azadlıq", "Sevimli obraz", "Yay günləri", "Məhsul bayramı", "İntizarlı illər" adlı əsərləri özünün məna-məzmun dolğunluğu, bədii estetik mahiyyəti və peşəkar işlənilmə xüsusiyyətləri ilə seçilir. "Yay günləri" adlı əsərdə gənc qızla oğlanın milli ornamentli xalça üzərində şahmat oynadıqları təsvir olunub. "Məhsul bayramı" adlı əsər isə aşıq sənətimizə həsr olunub. Rəssamın həyat və yaradıcılığı haqqında 1985-ci ildə nəşr olunmuş albom-kitabda bu əsər haqqında Əşrəf İbrahimov yazırdı: "Qədim bir ulusun, obanın mahnılarını eldənelə yayan aşıq, eləcə də arxa planda görünən çalğıçılar tamaşaçıya sənətin ölməzliyindən, xalq ənənəsinin gözəlliyindən söhbət açırlar".

H.Məmmədovun portret əsərlərindən "Xalq artisti, tarzən Hacı Məmmədovun portreti", "166 yaşlı Şirəli Müslümov", "Akademik Qədir Sultanovun portreti", "Həyat naminə. Avtoportret", "Sovet İttifaqı Qəhrəmanı Bahəddin Mirzəyev", "Qızımın portreti" və başqalarını qeyd etmək olar. Rəssam portret əsərlərində surətlərin daxili psixoloji aləmini açıb göstərməyə çalışmış və istəyinə müvəffəq olmuşdur. Həmçinin rəssam bütöv yaradıcılığı boyu Azərbaycanın bölgələrinə səfər edərək, görüb duyduqlarını, həssas rəssam qəlbi ilə müşahidə etdiklərini maraqlı mənzərə lövhələrində əks etdirməyə çalışmışdır. "İsmayıllı", "İmamzadə", "Quba mənzərəsi", "Xəzərdə", "Şahdağ", "Lerik", "Novxanı", "Şuşa" adlı əsərlər bu qəbildəndir.

Hafiz Məmmədov diqqəti cəlb edən, uğurlu kompozisiya və işlənilmə xüsusiyyətləri ilə seçilən, seyirçidə xoş duyğular yaradan bir çox natürmort əsəri ərsəyə gətirmişdir. Rəssamın natürmort əsərlərindən "Yemiş", "Satıl, nar, heyva", "Şərq ərmağanları", "Mis qablar", "Natürmort. Nar, heyva" və başqalarını qeyd etmək olar.

Rəssam bir çox xarici ölkədə - Misir, Livan, İraq, Suriya, Tunis, Macarıstan, Rumıniyada yaradıcılıq ezamiyyətlərində olmuş, çoxsaylı eskiz və rəsm, həmçinin maraqlı rəngkarlıq əsəri yaratmışdır. Onun səfər təəssüratları "Misir torpağında" adı ilə 1960-cı ildə "Ədəbiyyat və incəsənət" qəzetində dərc edilmişdir. Sənət ustası H.Məmmədov yazırdı: "Hələ axşam işığında, cəmisi bir neçə dəqiqədə gördüklərimizi deməklə qurtarmaz... Məni bir fikir narahat edirdi. Kaş gördüklərimi istədiyim kimi çəkə biləydim!..." Qeyd etmək lazımdır ki, rəssamın yaradıcılıq ezamiyyətlərində apardığı axtarışlar onun yaradıcılığının formalaşması və püxtələşməsi istiqamətində böyük rol oynamışdır. "Qahirə axşamı", "Luksorda məbəd", "Sfinks önündə", "Kiraz tikintisi", "Qırılmış ümidlər", "Sbeytla xarabalıqları", "Narahat dünya" və başqa əsərləri rəssamın xarici ölkələrə həsr olunmuş çoxsaylı tablosundan nümunələrdir.

H.Məmmədovun bədii və pedaqoji yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. O, Əməkdar incəsənət xadimi fəxri adına layiq görülüb. Bu il rəssamın vəfatından 30 il ötür. Hafiz Məmmədov çoxşaxəli uğurlu bədii və pedaqoji yaradıcılıq fəaliyyəti ilə adını Azərbaycan təsviri sənət tarixinə əbədi həkk edib.

Əsəd QULİYEV,
Rəssamlar İttifaqının üzvü,
sənətşünas

Azərbaycan. - 2025.- 1 iyun (№ 113).- S.9.